# ELM

*Qüvvət elmdədir,*
*başqa cür heç kəs*
*Heç kəsə üstünlük*
*eyləyə bilməz.*
*Nizami Gəncəvi*

*Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qəzeti*

НАУКА

№ 20 (1187) Cümə, 27 oktyabr 2017-ci il Qəzet 1984-cü ildən çıxır Qiyməti 50 qəpik


# Seysmoloqlar Bakıda toplaşıblar

***Mərkəzi Elmi Kitabxanada "Şəbəkə idarəetmə sistemləri və seysmik analitik alətlər üzrə təlim" mövzusunda beynəlxalq konfrans keçirilib. Respublika Seysmoloji Xidmət Mərkəzi, Ukrayna Elm və Texnologiya Mərkəzi, Lourens adına Milli Livermor Laboratoriyası, ABŞ-ın Enerji Departamenti və Birləşmiş Seysmoloji Tədqiqatlar İnstitutunun dəstəyi ilə baş tutan tədbirdə dünyanın 20-dən artıq ölkəsindən seysmoloqlar iştirak ediblər.***

Tədbiri giriş sözü ilə AMEA prezidenti, akademik Akif Əlizadə açaraq müxtəlif ölkələrin seysmoloqları arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi və qarşılıqlı təcrübə mübadiləsi baxımından konfransın əhəmiyyətini vurğulayıb. Azərbaycanda seysmologiya elminin inkişaf tarixindən, bu istiqamətdə aparılan mühüm tədqiqatlardan danışan alim son 50-60 ildə ölkəmizdə seysmoloji tədqiqatların intensiv xarakter aldığını diqqətə çatdırıb. Bildirib ki, respublikada aparılan seysmoloji müşahidələr, seysmik xidmət daim dövlətin diqqət mərkəzindədir. Bu günədək aparılmış tədqiqatlarda Azərbaycanın seysmik rejimi müəyyən edilib, palçıq vulkanları ilə seysmikliyin əlaqələri müəyyənləşdirilib, Xəzərin seysmikliyinin öyrənilməsi üçün dib seysmoqrafları alınıb.

Azərbaycanda seysmologiya sahəsində əldə olunan uğurlardan danışan AMEA rəhbəri bildirib ki, 2000-ci ilin noyabrında Bakıda baş verən zəlzələdən dərhal sonra ulu öndər Heydər Əliyevin göstərişinə əsasən, respublikada seysmik xidmətin işinin modernləşdirilməsi məqsədi ilə tender elan edilib və ilkin olaraq Respublika Seysmoloji Xidmət Mərkəzi üçün ABŞ-ın "Kinemetriks" şirkətinin istehsalı olan telemetrik peyk rabitəsi ilə işləyən 14 dəst telemetrik seysmik stansiya alınıb. Alim hazırda Azərbaycanda 35 telemetrik seysmik stansiyanın fəaliyyət göstərdiyini qeyd edib.

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini, tibb xidməti general-leytenantı Faiq Tağızadə sesmologiyaya dair elmi müzakirələrin aparılmasının ölkədə bu sahədəki problemlərin həllinə önəmli töhfələr verəcəyinə əminliyini ifadə edib. AMEA ilə FHN arasındakı mövcud əlaqələrdən danışan Faiq Tağızadə iki qurumun təbii və texnogen proseslərin, digər təhlükələrin öyrənilməsi istiqamətində hazırda birgə tədqiqatlar apardığını qeyd edib. O, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən nazirliyin AMEA ilə birgə "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nı nəşrə hazırladığını diqqətə çatdırıb.

Tədbirdə ABŞ-ın Enerji Departamentinin proqram rəhbəri V.Vanderer təmsil etdiyi qurumun fəaliyyəti və perspektiv planları barədə ətraflı məlumat verib.

Daha sonra Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli "Azərbaycanın müasir seysmogeodinamik vəziyyəti" mövzusunda məruzəsini təqdim edib. Azərbaycanda seysmik müşahidələrə başlanılması tarixindən bəhs edən alim bildirib ki, respublika ərazisində 22 GPS stansiya quraşdırılıb, mərkəzin geofizika və geokimya bölmələrinin texniki avadanlığı və cihazları yenilənib. Qurban Yetirmişli vurğulayıb ki, Respublika Seysmoloji Xidmət Mərkəzində aparılan kompleks tədqiqat işlərinin keyfiyyətinin artması xarici ölkələrdə fəaliyyət göstərən təşkilatlar tərəfindən də maraqla qarşılanır. Mərkəz 20-dən artıq xarici ölkənin seysmoloji mərkəzi ilə əməkdaşlıq edir.

Konfransda, həmçinin Birləşmiş Seysmoloji Tədqiqat İnstitutları tərəfindən hazırlanmış seysmik dalğa məlumatlarının idarəetmə vasitələri, "Seis-Comp3" məlumatların yığılması və işlənməsi vasitəsi, "ILoc" hadisənin yerinin müəyyənləşdirilməsi ilə bağlı müzakirələr aparılıb.

Tədbir bu gün yekunlaşacaq.



# Qüdrətli söz sənətkarı

2017-ci ildə Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi, görkəmli şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 135 illiyi tamam olur. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev sərəncam imzalayıb.

Sənəddə deyilir: "Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır.

Totalitarizmin çoxsaylı qurbanlarından biri kimi Cavidin adı doğma xalqının təfəkküründə obrazlaşmışdır. Ağır repressiya illərində mənən sarsılmadan keçdiyi ibrətamiz həyat yolu onu yaddaşlarda sənətkar şəxsiyyətinin bütövlüyünün rəmzinə çevirmişdir.

Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir".

Sərəncama əsasən böyük söz ustasının 135 illiyi layiqincə keçirilməsi, Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mədəniyyət və Turizm, Təhsil nazirlikləri, Milli Elmlər Akademiyası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə həvalə olunub.

## Vaqifin sənət idealları



səh. 2

## Elmi bölmələrin yığıncaqları



səh. 3

## Növbəti seminar



səh. 4

## Qəriblikdə ucalanlarımız



səh. 5

## Müsabiqə başa çatdı



səh.7

# MƏQSƏDLİ QRANT MÜSABİQƏSİNİN NƏTİCƏLƏRİ AÇIQLANIB

***Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Ən layiqli alim - Ə.L.A." məqsədli qrant müsabiqəsi çərçivəsində "2016-cı ilin alimi" və "2016-cı ilin gənc alimi" mükafat müsabiqələrinin qalibləri mükafatlandırılıb.***

"Hilton" otelində keçirilən mükafatlandırma mərasimini giriş sözü ilə Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev açıb. O, qrant layihələrin həyata keçirilməsinin əhəmiyyətindən söz açaraq rəhbərlik etdiyi qurumun 8 ildir ki, bu istiqamətdə məqsədyönlü işlər həyata keçirdiyini bildirib. Qeyd edib ki, gənc alimlərin müxtəlif elm sahələri üzrə hər il əldə etdikləri elmi və elmi-təşkilati nailiyyətlərini müsabiqə yolu ilə qiymətləndirmək və mükafatlandırmaq qurumun əsas hədəflərindəndir. Elçin Babayevin sözlərinə görə, "2016-cı ilin alimi" mükafat müsabiqəsinin məqsədi ötən il uğurlu elmi fəaliyyət göstərmiş, yüksək impakt-faktorlu, nüfuzlu jurnallarda dərc olunmuş elmi məqalələri olan, elmi işlərinə istinad edilən alimlərin EİF tərəfindən müəyyənləşdirilərək beynəlxalq standartlara uyğun meyarlar üzrə qiymətləndirilməsi və mükafatlandırılmasıdır. Bildirib ki, şəffaf və obyektiv şəkildə keçirilmiş müsabiqənin nəticələrinə görə, "2016-cı ilin alimi" və "2016-cı ilin gənc alimi" nominasiyaları üzrə 12 alim (8 alim "2016-cı ilin alimi", 4 alim "2016-cı ilin gənc alimi") qalib elan olunub. Qaliblərdən 6-sı AMEA-nın müxtəlif institutlarını, digər 6 qalib isə Bakı Dövlət Universiteti (3 yer), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetini təmsil edir. Müsabiqə nəticəsində fizika, riyaziyyat və texnika elmləri üzrə 3, kimya elmləri üzrə 4, tibb, biologiya və aqrar elmləri üzrə 2, humanitar və ictimai elmlər üzrə 3 alim qalib elan olunub. İlin sonunda isə 2018-ci il üçün yeni müsabiqənin elan edilməsi nəzərdə tutulur.

Sonra AMEA prezidenti, Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının üzvü,



akademik Akif Əlizadə çıxış edərək bu müsabiqəni elmin inkişafı, populyarlaşdırılması və gənc alimlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində mühüm addım kimi qiymətləndirib. Alim ölkədə gənclərin elmə cəlb olunması, onların birgə fəaliyyəti və dünya elminə töhfələr verməsini təmin etmək üçün məqsədli elmi proqramların təşkil olunmasının vacibliyini vurğulayıb. Elm sahəsində mövcud olan maliyyə probleminə toxunan AMEA prezidenti gənc alim və tədqiqatçılara beynəlxalq qrant layihələrdə, elm müsabiqələrində fəal olmağı tövsiyə edib.

Tədbirdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov, Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Təhsil nazirinin müavini Mətin Eynullayev, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov və digərləri alimlərin əməyinin qiymətləndirilməsində bu kimi müsabiqələrin böyük rol oynadığını bildiriblər, EİF-in həyata keçirdiyi qrant layihələrini yüksək dəyərləndiriblər.

Sonda müsabiqənin qaliblərinə diplom, medal və pul mükafatları təqdim olunub.

## Yeni informasiya sistemi

Prezident İlham Əliyevin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 - 2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın icrası istiqamətində AMEA Rəyasət Heyətinin 18 noyabr 2016-cı il tarixli qərarı ilə təsdiq edilən "Tədbirlər Planı"nın bəndlərindən biri "Azərbaycan alimləri diasporası" informasiya sisteminin işlənilməsi məsələsinə həsr olunmuş, bu vəzifə AMEA-nın İnformasiya Texnologiyaları İnstitutuna həvalə edilmişdir.

İnstitutun Elmi şurasının iclasında çıxış edən şöbə müdiri Gülnarə Nəbibəyova bu məqsədlə İşçi Qrupun yaradıldığını, Fəaliyyət Planının hazırlandığını və rəhbərlik etdiyi şöbənin mütəxəssisləri tərəfindən "Azərbaycan alimləri diasporası" informasiya sisteminin işlənildiyini bildirib. O, sistemin kontent təminatı ilə əlaqədar olaraq xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı alimlər haqqında məlumatların əldə edilməsilə bağlı məktubların hazırlandığını və müvafiq təşkilatlara göndərildiyini qeyd edib.

Sonra çıxış edən AMEA-nın akademik-katibi, institutun direktoru, akademik Rasim Əliquliyev "Azərbaycan alimləri diasporası" informasiya sisteminin dünyanın müxtəlif ölkələrində yaşayıb fəaliyyət göstərən azərbaycanlı alimlərin fəaliyyətinin işıqlandırılması və dünya ictimaiyyətinə çatdırılması, onlarla əməkdaşlıq əlaqələrinin təşkili istiqamətində böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. "Bu sistemin işlənilməsi üçün xaricdə yaşayan azərbaycanlı alim və mütəxəssislərlə əlaqələr qurmaq, onların fəaliyyəti haqqında dolğun məlumatlar əldə etmək zəruri məsələlərdəndir", - deyə bildirən akademik Rasim Əliquliyev institut əməkdaşlarını da bu prosesdə fəal iştirak etməyə çağırıb.

# Vaqifin sənət idealları

***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Humanitar və İctimai Elmlər bölmələrinin birgə təşkilatçılığı ilə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunan "Molla Pənah Vaqifin sənət idealları və müasirlik" mövzusunda elmi sessiya keçirilib.***

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli elmi sessiyanın Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən təşkil olunduğunu bildirib. Molla Pənah Vaqifin adının UNESCO-nun "2016 - 2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edildiyini deyən alim bildirib ki, bu, Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür. Daha sonra akademik İsa Həbibbəyli şairin poeziya dünyası, nadir yaradıcılıq üslubu, ictimai və siyasi xadim kimi diplomatik təcrübəsi, bölgədəki proseslərə təsir imkanları barədə danışıb.



Sonra ədibin həyat və yaradıcılığına həsr olunan "Həyatın nəsrlə yazdığını mən nəzmlə vəsf edirəm" sənədli filmi nümayiş olunub.

Sessiyada Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Məmməd Əliyev "Molla Pənah Vaqif və Məhtumqulu" adlı məruzə ilə çıxış edib. Alim XVI əsrin əvvəllərindən xalq şeiri üslubunun və ona məxsus poetik formaların klassik poeziyada işlənməsindən, hüdudlarının getdikcə genişlənməsi və klassik ədəbiyyatda mövqelərini gücləndirməsindən danışıb, qeyd edib ki, Vaqif və Məhtumqulu Fəraqi yaradıcılığı ilə anadilli şeirin poeziyadakı hakim mövqeyi tam bərqərar olunub. Yazılı ədəbiyyatda ədəbi dil normaları Azərbaycan və türkmən xalq danışıq dilləri hesabına zənginləşərək möhkəmlənib.

Tədbirdə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Paşa Kərimovun "Gerçəklik və gözəllik nəğməkarı", Memarlıq və İncəsənət İnstitutunun ümumi işlər üzrə direktor müavini Xəzər Zeynalovun "Molla Pənah Vaqifin obrazı Azərbaycan təsviri sənətində", Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan sənətkarlıq tarixi şöbəsinin rəhbəri, professor Camal Mustafayevin "Molla Pənah Vaqif və Qarabağ xanlığının xarici siyasəti" mövzularında məruzələri dinlənilib.

Tədbirdə, həmçinin Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Mahirə Quliyeva və başqaları da çıxış edərək böyük şairin həyat və yaradıcılığından bəhs ediblər.

# Elm-dövlət-sanaye

*Yüksək Texnologiyalar Parkının Müşahidə Şurasının növbəti iclası keçirilib*

Tədbiri AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev açaraq iclasın ölkə Prezidentinin Sərəncamı əsasında yaradılmış Yüksək Texnologiyalar Parkının bir illik fəaliyyətinə dair hesabata həsr edildiyini bildirib. Alim elm-dövlət-sanaye əməkdaşlığının təmin edilməsi və elmin kommersiyalaşdırılması ilə milli innovasiya ekosisteminin və bilik iqtisadiyyatının qurulmasının Yüksək Texnologiyalar Parkının fəaliyyətinin ali məqsədi olduğunu vurğulayıb.

Sonra "Yüksək Texnologiyalar Parkı" MMC-nin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev 2016-2017-ci illər ərzində görülən işlərdən danışıb. Parkın mərkəz və şöbələrinin fəaliyyətindən söz açan Vüqar Babayev bildirib ki, cəmiyyətdə təşəbbüskar yanaşmanın inkişaf etdirilməsi ilə layihələri ideyadan biznesə çevrən, texnologiyaların transferini həyata keçirən elmtutumlu mərkəz olaraq Biznes İnkubasiya Mərkəzi özündə 7000-dən artıq peşəkar alim və mütəxəssis toplamaq imkanına sahibdir. Sənaye Mərkəzi isə xüsusi statusa malik olan və rezidentlər üçün ideal infrastrukturu təmin edən istehsalat məkanıdır.

İclasda parkın təşkil etdiyi və tərəfdaş olduğu startap müsabiqələri, eləcə də "Yeni fikir" müsabiqəsi, "Climate launchpad" proqramı, Elm-Təhsil Biznes Əməkdaşlığı Platforması, "Elm-Texnologiya İdeya Bank" və "Alim İnsan" kimi Biznes İnkubasiya Mərkəzinin aktiv layihələrindən danışılıb. Yüksək Texnologiyalar Parkın yerli və xarici qurumlarla əməkdaşlıqları, təşkil edilən görüş, tədbir, təlim proqramları və seminarlar barədə məlumatlar iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Hesabatda, həmçinin AMEA Rəyasət Heyətinin 22 sentyabr 2017-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikası iqtisadiyyatının əsas sektorları üzrə strateji yol xəritələrində verilmiş tapşırıqların icrası, həmçinin ölkədə bilik iqtisadiyyatı və insan kapitalının davamlı inkişafını rəhbər tutaraq görülən işlərə toxunulub.

Sonra Yüksək Texnologiyalar Parkının idarəedici təşkilatının və rezidentlərinin hesabatları təqdim edilib.

# Elmi bölmələrin yığıncaqları

Kimya Elmləri Bölməsi ilə Biologiya və Tibb Elmləri Bölməsinin birgə ümumi yığıncağı keçirilib.

Tədbiri giriş sözü ilə akademik Əhliman Əmiraslanov açaraq gündəlikdə duran məsələlərlə bağlı məlumat verib.

Daha sonra AMEA-nın akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktoru, akademik Vaqif Fərzəliyev "Fizioloji fəal üzvi birləşmələrin sintezi, tədqiqi və tətbiq sahələrinin müəyyənləşdirilməsi" mövzusunda məruzəsini təqdim edib. Alim rəhbərlik etdiyi müəssisədə neft məhsullarının mikrobioloji zədələnməsinin qarşısını alan bioloji fəal maddələrin - biosidlərin sintezi, tədqiqi və tətbiq sahələrində əldə olunan nailiyyətlərdən danışıb. İnstitut alimlərinin mikrobioloq və fizioloqlarla birgə apardıqları tədqiqatlardan bəhs edən natiq sintez edilmiş biosidlərin digər sahələrdə bioloji fəallığının araşdırıldığını vurğulayıb.

Bu istiqamətdə qazanılan uğurlara əsaslanaraq 2015-ci ildə AMEA Rəyasət Heyəti tərəfindən təsdiqlənmiş "Fizioloji fəal maddələrin sintezi, tədqiqi və tətbiq sahələrinin müəyyənləşdirilməsi" adlı multidissiplinar elmi proqramdan söz açan institut direktoru Aşqarlar Kimyası, Mikrobiologiya və Fiziologiya institutları tərəfindən icra edilən birgə layihənin nəticələri barədə məlumat verib.

Yığıncaqda, həmçinin fizioloji fəal maddələrin sintezi və tədqiqi sahəsində Aşqarlar Kimyası İnstitutunun müştərək beynəlxalq layihə çərçivəsində fəaliyyəti, bu sahədə institutla əməkdaşlıq etmək niyyətində olan xarici elmi mərkəzlərlə bağlı məlumatlar, o cümlədən multidissiplinar elmi proqramlar üzrə çap olunmuş elmi əsərlər və perspektiv planlar iştirakçıların diqqətinə çatdırılıb. Məruzə dinlənildikdən sonra suallar cavablandırılıb, aidiyyatı sahələr üzrə alimlərin çıxışları dinlənilib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Kimya Elmləri Bölməsinin akademik-katibi, akademik Dilqəm Tağıyev məruzənin tarixi icmal xarakter daşıdığını və burada Aşqarlar Kimyası İnstitutunun son illər əldə etdiyi uğurların təcəssüm olunduğunu qeyd edib, tədqiqat mövzusunu yüksək qiymətləndirib. Kimyaçı, bioloq, fizioloq, farmakoloq və həkimlərin birgə tədqiqat aparmalarının zəruriliyini vurğulayan



akademik Dilqəm Tağıyev müştərək fəaliyyət nəticəsində daha mühüm nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Sonda akademik Əhliman Əmiraslanov çıxış edərək multidissiplinar xarakterli toplantının mühüm əhəmiyyət kəsb etdiyini və gələcəkdə böyük tədqiqatlara yol açacağını bildirib.

* * *

İctimai Elmlər Bölməsinin iclasında Zəngəzurun qərbi Ermənistana verilməsi tarixindən bəhs olunub.

Tədbiri giriş sözü ilə açan bölmənin akademik-katibi, akademik Nərgiz Axundova gündəlikdəki məsələləri diqqətə çatdırıb.

Sonra A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru İlqar Niftəliyev "Azərbaycanın qədim torpağı - Zəngəzurun Qərbi Ermənistana verilməsi tarixindən" mövzusunda məruzəsini təqdim edib. Alim çıxışında Zəngəzurun tarixindən, bu mahalın Azərbaycan türklərinin əzəli yurd yerləri olmasından, 96 il əvvəl xalqımızın iradəsi əleyhinə olaraq mahalın 6742 kvadrat verstlik ərazisinin çox hissəsinin zorla qoparılıb Ermənistana birləşdirilməsindən tarixi fakt və sənədlərin dili ilə bəhs edib. Məlumat verilib ki, Zəngəzurun faciəsi XVIII əsrin sonu-XIX əsrin əvvəllərindən, 1813-cü ildə Gülüstan və 1828 -ci ildə Türkmənçay müqavilələrinin imzalanmasından sonra İran ermənilərinin bu torpaqlara yerləşdirilməsi ilə başlanmışdır. Zəngəzurla birlikdə, İrəvan, Göyçə, Vedibasar və digər tarixi yurd yerlərimiz də məkrli erməni hiyləsi ilə yadlaşdırılmışdır.

Məruzə ətrafında akademik Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Musa Qasımlı və başqaları çıxış edərək ermənilərin bir əsrdən çox müddətdə müxtəlif bölgələrdə törətdikləri soyqırımların, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaratdıqları uydurmaların əsl mahiyyətindən bəhs ediblər.

İclasda, həmçinin akademik Cəmil Quliyevin 90, AMEA-nın müxbir üzvü Arif Abbasovun 80, tarix üzrə elmlər doktoru Əli Rəcəblinin 90 illik yubileylərinin keçirilməsi, bölmənin bürosunun yeni tərkibinin, Qafqazşünaslıq İnstitutunun yeni Elmi Şurasının təsdiq edilməsi və digər məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda bir sıra kadr məsələlərinə baxılıb.

* * *

Humanitar Elmlər Bölməsinin də növbəti büro iclası keçirilib. İclası giriş sözü ilə bölmənin akademik-katibi, akademik Teymur Kərimli açıb. İclasda Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Türk incəsənətinin dövrləşdirilməsi problemi" mövzusunda məruzə ilə çıxış edib. Alim türk dünyası sənət tarixinin yaradılması yolunda əsas məsələlərdən biri olan dövrləşmənin xüsusiyyətlərindən danışıb, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Qırğızıstanın incəsənət tarixi dövrləşdirilməsinin milli modellərini araşdırıb. Məruzəçi vurğulayıb ki, dövrləşmə üsulları metodoloji yanaşmalar üzrə fərqlənir. O, müasir sənətşünaslıqda dövrləşməyə daha çox xronoloji və sülalə yanaşması kimi iki yanaşma tərzinin tələb olunduğunu söyləyib.

Məruzə ətrafında geniş fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb, müvafiq qərar qəbul olunub.

Sonra elmi-təşkilati məsələlər müzakirəyə çıxarılıb. Memarlıq və İncəsənət İnstitutunun ümumi işlər üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Zeynalovun institutun elmi işlər üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Kərimlinin institutun elmi katibi, Sərvər Şirinovun Hüseyn Cavidin Ev Muzeyinin elmi katibi vəzifələrinə təyin olunmaları, həmçinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Elmi şurasının tərkibində dəyişiklik edilməsi ilə bağlı Rəyasət Heyətində vəsatət qaldırılması qərara alınıb.

Tədbirdə kadr məsələlərinə də baxılıb. Sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyevanın Memarlıq və İncəsənət İnstitutunun Qafqaz Albaniyasının memarlıq və incəsənəti şöbəsinin müdiri vəzifəsinə təsdiq edilib.

İclasda, həmçinin görkəmli heykəltəraş, Xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarovun 90 illik yubileyinin keçirilməsi ilə bağlı Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması qərara alınıb.

***Kamran İskəndərov***

## Xəbərlər

### Daha bir yenilik

Viki-mühitdə informasiya müharibəsi texnologiyaları ilə əlaqədar tədqiqatlar elm sahəsi üçün yenilikdir. Bu barədə AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev elmi seminarda məlumat verib. Akademik viki-mühitdə informasiya müharibəsi texnologiyalarına dair dissertasiya işində təklif edilən yanaşmaların böyük praktik əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

İnstitutun sektor müdiri İradə Ələkbərova dissertasiya işini təqdim edərək vikimetrik tədqiqatların müasir vəziyyəti, problemləri və tədqiqat obyektləri barədə danışıb. Qeyd olunub ki, dissertasiya işinin əsas məqsədi xalqların milli-mənəvi dəyərlərinin, tarixi həqiqətlərinin qorunmasında, informasiya təsirində mühüm rolu olan "Vikipediya" virtual ensiklopediyasında informasiya müharibəsi təzahürlərini aşkarlamaqdır. Məruzəçi, həmçinin informasiya müharibəsində multimedia resurslarından səmərəli istifadə, üslub və alqoritmin işlənməsi, onların yoxlanılması ilə bağlı görülmüş işlər, əldə olunmuş nəticələr haqqında məlumat verib.

### Elmi-nəzəri konfrans

Füzuli adına Əlyazmalar İnstitutunda görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr edilmiş "Molla Pənah Vaqif: Sələflər və xələflər - erkən yeni dövr əlyazmaları və Azərbaycan ədəbiyyatının tarixi problemləri" mövzusunda XV ənənəvi respublika elmi-nəzəri konfransı keçirilib.

Konfransı giriş sözü ilə institutun elmi işlər üzrə direktor müavini Aybəniz Əliyeva-Kəngərli açaraq Vaqifin milli poeziyamızın və milli dilimizin inkişafındakı əvəzsiz xidmətlərindən danışıb. O, realist poeziyanın və ümumiyyətlə Azərbaycan ədəbiyyatının yeni mərhələsinin Vaqiflə başlandığını bildirib.

Tədbirdə institutun elmi işlər üzrə direktor müavini Paşa Kərimov "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nı xatırladaraq, bu əlamətdar hadisənin ölkənin əksər təhsil və elmi müəssisələrində qeyd olunduğunu diqqətə çatdırıb.

Plenar iclasda Paşa Kərimov, institutun şöbə müdiri, professor Azadə Musabəyli, Gəncə Dövlət Universitetinin dosenti Afaq Yusifli və Folklor İnstitutunun böyük elmi işçisi Sahilə Sədnik qızı çıxış ediblər.

Sonda tədbir iştirakçıları konfrans çərçivəsində təşkil olunmuş "Vaqif -300" mövzusunda sərgiyə baxış keçiriblər.

# Ədəbiyyatımızın yeni dövrləşmə konsepsiyası

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasında Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi ilə bağlı konsepsiyasının müzakirəsi keçirilib. Uzun illər konsepsiyanın üzərində işləyən və dəfələrlə ölkədə və xaricdə məruzə ilə çıxışlar edən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli mövzu ilə bağlı şurada məruzə edib.

Tədbirdə müasir Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran mühüm vəzifələrdən birinin də milli ədəbiyyat tarixinin keçdiyi çoxəsrlik inkişaf yolunun sistemli şəkildə dövrləşdirilməsinin elmi təsnifatını hazırlamaqdan ibarət olduğunu diqqətə çatdıran akademik İsa Həbibbəyli milli ədəbiyyatın keçdiyi çoxəsrlik inkişaf yolunun elmi-nəzəri cəhətdən yenidən və əsaslı şəkildə dövrləşdirilməsi zərurətinin konkret olaraq yalnız Azərbaycanın bir ölkə kimi dövlət müstəqilliyi qazanmasından sonra meydana çıxdığını xüsusi vurğulayıb. İsa Həbibbəyli hazırkı şəraitdə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi haqqında elmi konsepsiyanın hazırlanmasını, Azərbaycan ədəbiyyatı tarixinin keçmiş sovet ideologiyası əsasında aparılmış dövrləşməsinin ədəbi-tarixi proseslərin reallıqlarını əks etdirməməsi, müstəqillik dövrünün prinsiplərinə, milli məfkurəyə uyğun gəlməməsi, ayrı-ayrı müəlliflərin və ya müəlliflər kollektivinin yazıb nəşr etdirdikləri Azərbaycan ədəbiyyatı tarixinə dair akademik nəşrlərdə, dərsliklərdə, monoqrafik tədqiqatlarda dövrləşdirilmədə keçmişdə müəyyən edilmiş mərhələlərdən uzaqlaşa bilməmək hallarının aşkar nəzərə çarpması, dövrləşmə meyarlarında və mərhələlərin müəyyən edilməsində pərakəndəliyin müşahidə olunması, dövlət müstəqilliyi ideallarının işığında Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin vahid sisteminin yaradılması zərurətinin meydana çıxması, dövrləşdirmə prosesində dünyada gedən ədəbi-tarixi proseslərin nəzərə alınması zərurətindən yarandığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəylinin müəllifi olduğu Azərbaycan ədəbiyyatının yeni dövrləşmə konsepsiyası ətrafında geniş diskussiya və fikir mübadiləsi aparılıb, ədəbiyyatşünas alimlər filologiya elmləri doktoru Mahirə Quliyeva, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, filologiya elmləri doktoru, professor Şirindil Alışanlı, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov, filologiya elmləri doktoru, professor Məmməd Əliyev, filologiya üzrə fəlsəfə doktoru Nikpur Cabbarlı, AMEA-nın müxbir üzvü Tehran Mustafayev, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov, filologiya elmləri doktoru, professor Tahirə Məmməd bu konsepsiyanın zəruriliyini vurğulayaraq böyük elmi əhəmiyyətindən geniş bəhs ediblər.

Əməkdaşlıq

## Dərvişlərlə bağlı inanclar

Özbəkistanın Səmərqənd şəhərində "Orta əsrlərdə Səmərqənd mədrəseyi-alilərinin İslam mədəniyyəti və təhsil sisteminin inkişafında rolu" mövzusunda beynəlxalq elmi simpozium keçirilib. Səmərqənd Dövlət Universitetinin yaradılmasının 90, Uluqbəy Mədrəsəsinin yaradılmasının 600 illiyinə həsr olunan simpoziumda ölkəmizi Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov təmsil edib.

Almaniya, Azərbaycan, Rusiya, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdən çoxsaylı elm və mədəniyyət xadimlərinin qatıldığı tədbirdə Muxtar İmanov "Dərvişlərlə bağlı inancların iki fərqli istiqaməti" adlı məruzə ilə çıxış edib.

Məruzədə xalq ədəbiyyatında dərvişlərə ikili - müsbət və mənfi münasibətin izahı əksini tapıb. Qeyd olunub ki, nağıl və dastanlarda dərvişlərin həm xeyirxah, həm də bədxah qüvvəni təmsil etdiyinin şahidi oluruq. Real həyatda dərvişlər rəğbətlə qarşılandıqları kimi, təqib və təzyiqlərə də məruz qalıblar. Bu cür ikili münasibətin səbəbi isə dərvişliyin kök etibarilə şamançılığa bağlı olması və onların hərəkətlərində sərbəstliyə can atmaları ilə izah edilə bilər. Dərvişlərin xeyirxah və bədxah qütblərə ayrılması şamanların ağ şaman və qara şaman qütblərinə ayrılması ilə səsləşir. Dərvişlərin göstərdikləri müxtəlif kəramətlər əsasını şaman möcüzələrindən götürür.

Muxtar İmanov, həmçinin forumun bölmə iclaslarından birinə sədrlik edib.

## Qırğızıstanda beynəlxalq konfrans

Zoologiya İnstitutunun direktoru Elman Yusifov Qırğızıstan Milli Elmlər Akademiyasının Biologiya və Torpaq İnstitutu tərəfindən təşkil olunmuş "Mərkəzi Asiya ölkələrində ixtiologiya və hidrobiologiyanın problemləri" mövzusunda beynəlxalq konfransda iştirak edib.

Tədbirdə o, iştirakçılar tərəfindən maraqla qarşılanan "Azərbaycanın su ekosistemlərinin müasir problemləri və onların dayanıqlı inkişafı" adlı məruzə ilə çıxış edib.

## Vyanada seminar keçirilib

Avstriyanın paytaxtı Vyanada "Tədqiqat və İnnovasiya Siyasəti" mövzusunda seminar keçirilib. Tədbir Avropa Birliyinin Tədqiqat və Texnoloji İnkişaf üzrə 8-ci Çərçivə Proqramı - Horizon -2020 tərəfindən maliyyələşən "Şərq Tərəfdaşlığı plyus" layihəsi çərçivəsində təşkil olunub.

Seminarın keçirilməsində əsas məqsəd layihə çərçivəsində Elm, Texnologiya və İnnovasiya üzrə Beynəlxalq Əməkdaşlıq Şəbəkəsini genişləndirmək, Şərq Tərəfdaşlığı ölkələri və Avropa Birliyinə üzv ölkələrdən olan tədqiqatçıları əməkdaşlığa təşviq etməkdir.

Tədbirdə ölkəmizi AMEA Yüksək Texnologiyalar Parkının direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev təmsil edib.

Seminar çərçivəsində "İnnovasiya və yeni texnoloji biliklər", "Elm, Texnologiya və İnnovasiya siyasətinin nəzəri əsasları", "İnnovasiyaya dəstək alətləri və proqramları" kimi mövzulara dair məruzələr dinlənilib.

# Milli maraqlarımız qorunmalıdır

Tarix İnstitutu və Tətbiqi Tədqiqatlar Fondunun birgə təşkilatçılığı ilə "Regionda münaqişələrin gücləndiyi şəraitdə Azərbaycanın milli maraqlarının qorunmasının aktual problemləri" mövzusunda seminar keçirilib.

Tədbirdə Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov müasir dövrdə milli maraq və mənafelərimizin qorunmasının əhəmiyyətini qeyd edib. Bildirib ki, bu gün Azərbaycan tarixçilərinin əsas məqsədi həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq və saxta erməni təbliğatının qarşısını almaqdır. Akademik hazırda dünyada təhlükəli qarşıdurmaların yaşandığını və müxtəlif siyasi qüvvələr tərəfindən açıq-aşkar islamofobiya siyasətinin aparıldığını söyləyib: "Prezident İlham Əliyev ölkəmizdə multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla Azərbaycan reallığını bütün dünyaya nümunə kimi təqdim edir. Bu baxımdan dövlət başçımızın təşəbbüsü və himayəsi ilə keçirilən dünya tarixçilərinin beynəlxalq soyqırımı konfransları real tarixi həqiqətlərin aşkara çıxarılmasında mühüm rol oynayır".

Daha sonra seminarda institutun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramovun "Regionda terrorun təzahürləri: onların səbəbləri və başlıca hədəfləri", şöbə müdiri, tarix elmləri doktoru Ədalət Qasımovun "Müasir dövrdə "islam həmrəyliyi"nin aktual problemləri" və Tətbiqi Tədqiqatlar Fondunun sədri İbrahim Əliyevin "Müasir dövrdə Azərbaycanın regional problemlərin həllində fəaliyyəti" mövzusunda məruzələri dinlənilib.

# Hüseyn Cavid və müasir gənclik

***Nizami adına Ədəbiyyat İnstitutu və Hüseyn Cavidin Ev Muzeyinin birgə təşkilatçılığı ilə böyük dramaturq və şair Hüseyn Cavidin anadan olmasının 135-ci ildönümünə həsr olunan "Hüseyn Cavid və müasir gənclik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbirdən əvvəl iştirakçılar ədibin Hüseyn Cavid parkında ucaldılan heykəlini ziyarət ediblər.***

Türkiyə, Misir, İran, Özbəkistan və digər ölkələrin alim və mütəxəssislərinin iştirak etdiyi tədbiri giriş nitqi ilə AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli açıb. Alim konfransın Hüseyn Cavid irsinin tədqiqi və təbliği baxımından önəmini vurğulayaraq dramaturqun zəngin yaradıcılığı barədə ətraflı məlumat verib. Bildirib ki, Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoyub. Onun dünya romantizm ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan müxtəlif janrda əsərləri qiymətli söz inciləri kimi xalqımızın zəngin bədii fikir xəzinəsində layiqli yer tutur.

"Hüseyn Cavid Azərbaycan ədəbiyyatında milli romantik şeirin, mənzum dram və faciə janrlarının əsasını qoyub" - deyə bildirən akademik qeyd edib ki, Cavid dramaturgiyası ümumilikdə ictimai ədalətsizliyə, dünyanı parçalamaq və bölüşdürmək istəyən imperiyaların müstəmləkə siyasətinə, ana dilinə sevgiyə, saf mənəviyyata, insanın mənəvi ucalığına həsr olunub.

Sonra "Kaspi" təhsil şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva "Hüseyn Cavidin "Topal Teymur" əsəri: tarix və müasirlik" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi ədibin Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanına yeni məzmun gətirdiyini və onun "Ana", "Uçurum", "İblis", "Şeyx Sənan" kimi əsərlərinin bu günün reallıqları ilə səsləşdiyini bildirib. Qeyd edib ki, Cavid tarixi əsərlərə bədiilik qatmaqda peşəkarlıq göstərərək "Topal Teymur" əsəri ilə sosializm ideologiyasına qarşı türkçülük məfkurəsini gətirib. Sona Vəliyeva Cavidin ömrünün son günlərinə qədər milli məfkurəyə bağlı qaldığını, "Topal Teymur" əsərinə qarşı yönəldilən haqsız tənqidlərə susduğunu və zəngin yaradıcılığını davam etdirdiyini söyləyib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Yasamal Rayon Təşkilatının sədri, Hüseyn Cavidin qohumu Tağı Əhmədov cavidlər ailəsinin faciəli taleyindən söz açıb, böyük ədiblə bağlı eşitdiyi xatirələri bölüşüb. Bildirib ki, ümummilli lider, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin səyi və qətiyyəti sayəsində Hüseyn Cavidin nəşi uzaq İrkutskdan doğma Azərbaycana gətirilərək doğulduğu Naxçıvan torpağında dəfn edilib. O, böyük ədibin xatirəsinin həmişə xalqımız tərəfindən əziz tutulduğunu, onun yaradıcılıq irsinin hələ uzun illər boyu araşdırılacağını və tədqiq ediləcəyini vurğulayıb.

Tədbirdə Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun "Hüseyn Cavid dramaturgiyasında çoxcəhətli mələk obrazı", Hüseyn Cavidin Ev Muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının "Hüseyn Cavidin bədii-fəlsəfi irsində "dünya obrazı", Misirin Azərbaycandakı Mədəniyyət Mərkəzinin rəhbəri Əhməd Saminin "Hüseyn Cavidin ortaq türk ədəbi dili uğrunda mübarizəsi" və digər mövzularda məruzələr dinlənilib.

Konfrans işini plenar iclaslarla davam etdirib.

***Oqtay Fətulla***

# Növbəti seminar



Rəyasət Heyəti aparatının Hüquq və Kadrlar İdarəsinin növbəti seminarı keçirilib. Tədbirdə akademiyanın elmi müəssisə və təşkilatlarının kadrlar şöbələrinin rəisləri iştirak edib.

Seminarda idarənin rəisi, hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev çıxış edərək yeni qəbul olunan "Elm və elmi xidmət sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid-Tarif İxtisas Sorğu kitabçası"na edilmiş əlavə və dəyişikliklərin AMEA-nın elmi müəssisə və təşkilatlarında icrası barədə məlumat verib. Bildirib ki, kitabça Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 30 avqust 2017-ci il tarixli qərarı ilə təsdiq edilib və "Elm haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə uyğunlaşdırılıb.

Rasim Ağasiyev sözügedən sənədin işçilərin əmək funksiyalarının və əməyinin ödəniş dərəcələrinin müəyyən edilməsində, onların hüquq və vəzifələrini əks etdirən vəzifə təlimatlarının işlənilməsində, peşəkarlıq səviyyəsindən asılı olaraq onların işə qəbulu və vəzifədə irəli çəkilməsi və məşğulluğunun səmərəli təmin edilməsində, attestasiyasının keçirilməsində və əmək müqavilələrinin bağlanılmasında əsas normativ hüquqi akt olduğunu söyləyib. İdarə rəisi Vahid-Tarif İxtisas Sorğu kitabçasının Rəyasət Heyəti tərəfindən təsdiqləndiyini bildirib, gələcəkdə görüləcək işlərin buna uyğun aparılması barədə tapşırıqlarını verib.

Sonra elmi müəssisə və təşkilatlarda əməyin ödəniş dərəcələrinin kitabça ilə müəyyən edilmiş diapazona uyğun tətbiq edilməsi barədə Hüquq və Kadrlar İdarəsinin Kadrlar şöbəsinin rəisi, texnika üzrə fəlsəfə doktoru Dilquşa Mirzəyeva çıxış edib. O, elm və elmi xidmət sahəsinə aid olan qulluqçuların rəhbərlər (struktur bölmə rəhbərləri), elmi işçilər və mütəxəssis vəzifələrinə uyğun ödəniş diapazonunda müəyyənləşdirildiyini söyləyib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Çexiyalı alimlər Fizika İnstitutunda

Çexiya Texniki Universitetinin Tətbiqi və Eksperimental Fizika İnstitutunun direktoru İvan Ştekl və bu müəssisənin keçmiş rəhbəri Stanislav Pospişil Fizika İnstitutunda olublar. İnstitutun direktoru, akademik Nazim Məmmədovla keçirilən görüşdə birgə əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Fizika İnstitutunda artıq 3 ildir ki, təhsilin magistratura pilləsinə qəbulun keçirildiyini söyləyən N.Məmmədov hazırda rəhbərlik etdiyi müəssisədə 16 magistrin təhsil aldığını bildirib. Qeyd edib ki, institutda magistrlərin ixtisas istiqamətlərinə uyğun olaraq nəzəri və riyazi fizika, fizikanın riyazi metodları, kvant mexanikası və elektrodinamikasının aktual problemlərinə dair mühazirələr tədris olunur. N.Məmmədov magistrlərin nəzəriyyə ilə yanaşı, təcrübi biliklərə də yiyələnmələrinə xüsusi önəm verildiyi və onların elmlə məşğul olmaları üçün institutda hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb.

İnstitutun innovasiya və transfer üzrə direktor müavini, fizika-riyaziyyat elmləri doktoru Ayaz Bayramov institutun strukturu, fəaliyyət istiqamətləri və əldə olunan əsas elmi nəticələr barədə məlumat verib.

# Qəriblikdə ucalanlarımız

***Ramiz Əlicavad oğlu Qasımov - Rusiya Federasiyasının Əməkdar elm xadimi, "Qazprom" ASC-nin və "Şimali Qafqaz Elmi Tədqiqat və Layihə İnstitutu" ASC-nin baş direktoru, texnika elmləri doktoru, professor, Rusiya Təbii Elmləri Akademiyasının, Dağ Elmləri Akademiyasının, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, Beynəlxalq Keyfiyyət və Marketinq Akademiyasının fəxri akademiki, Təbii Biliklər Akademiyasının, Avropa Təbii Biliklər Akademiyasının, Texnologiya Elmlər Akademiyasının akademiki, Ümumittifaq İxtiraçılar və Səmərələşdiricilər Cəmiyyətinin laureatı, "Qazprom" ASC-nin, N.Baybakov adına mükafatın laureatı, Qaz sənayesinin fəxri işçisi, Rusiya Sosial və İqtisadi İnkişaf Problemləri üzrə Ali Koordinasiya Şurasının üzvü, Qazprom Standartlaşma Texniki Komitəsinin, Beynəlxalq Qaz İttifaqının, Rusiya İqtisadi Onlayn Cəmiyyətinin baş ekspertidir. O, 550-dən çox elmi əsərin, 150-dən artıq ixtiranın və 20-dən çox elmi kitabın müəllifidir.***

Ramiz Qasımov 1958-ci ildə Hacıqabul rayonunun Qarasu kəndində anadan olub. 1976-cı ildə orta məktəbi əla qiymətlərlə bitirib və M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub və 1981-ci ildə fərqlənmə diplomu ilə "Neft və qaz quyularının qazılması" ixtisasını alaraq "Dağ mühəndisi" dərəcəsini alıb. İnstitutu bitirdiyi vaxtdan onun əmək fəaliyyəti qaz sənayesi ilə bağlıdır. 1991-ci ilədək SSRİ Qaz Sənayesi Nazirliyinin "Türkmənqazprom" birliyinin baş texnoloqu vəzifəsinə yüksələn Ramiz Qasımov burada 57 səmərələşdirmə təklifini həyata keçirib. Əmək fəaliyyəti ilə bərabər təcrübəni nəzəriyyə ilə vəhdətdə görən Ramiz rahatlığını yuxusuz gecələrlə əvəz edib, elmə olan bağlantı və sevgisi ona 1994-cü il ildə texnika elmləri namizədi və 1999-cu ildə isə texnika elmləri doktoru elmi dərəcəsini qazandırıb, 1999-cu ildə isə Rusiya Federasiyası Təbii Elmlər Akademiyasının müxbir üzvü seçilib.

İstedadlı təşkilatçı, təcrübəli rəhbər artıq 1996-cı ildən rəhbərlik etdiyi "Quyuların əsaslı təmiri" şöbəsinin müdiri, həmçinin "Quyuların əsaslı təmiri" elmi işi üzrə baş direktorun müavini vəzifəsini icra edib. Bu sahədə Ramiz Qasımov qazma və istismar prosesinin təkmilləşdirilməsi üçün Urenqoy, Vinqapur, Komsomol, Bovanenqkovo və başqa qaz və qazkondensat yataqlarında, Şimali Qafqazın Stavropol, Stepenovsk, Putinsk və başqa YQA-da böyük həcmdə iş aparıb. səmərəli fəaliyyəti, elm və texnikanın vəhdətindəki nailiyyətlərinə görə 2001-ci ildə Rusiya Federasiyası Qaz Sənayesinin elm və texnika üzrə mükafatının laureatı olub.

Ramiz Qasımov 2003-cü ildə Rusiya Federasiyası Dağ Elmləri Akademiyasının həqiqi üzvü seçilib və həmin ildə Şimali Qafqaz Dövlət Texniki Universitetinin "Neft və qaz quyularının qazılması" kafedrasının professoru adına layiq görünüb.

Ramiz Qasımovun fəaliyyəti, təcrübəsi, dərin biliyi və enerjisi sayəsində institut "Qazprom" ASC quyuların əsaslı təmiri və qazması üzrə qabaqcıl təşkilat oldu. 2005-ci ildə o, baş direktor vəzifəsinə, həmçinin "ŞimQafETLİ" ASC-nin direktorlar şurasının sədri seçilib.

Elmiliyi, bacarıq və qabiliyyəti Qasımovu "Qazprom" ASC sistemində hörmət və nüfuz sahibi etdi. İstehsalat, ictimai təşkilat və idarəetmə strukturlarındakı iş təcrübəsi ona imkan verib ki, cari iqtisadi şəraitdə istənilən çətin məsələlərin həllində kollektiv üzvlərinin maraqları ilə birləşərək "ŞimQafETLİ" ASC-nin qarşısında duran əsas məsələləri uğurla həyata keçirsin. Yüksək istedadın və ləyaqətin sahibi olan akademik 2005-ci ildə "Rusiya Federasiyasının ən yaxşı insanları" diplom və medalına layiq görülüb. 2006-cı ildə isə o, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Rusiya İqtisadiyyatı Cəmiyyətinin "aparıcı ekspert" seçilib.

Hazırda Ramiz Qasımov Kuban Texniki Universitetinin "Sənaye maşın və avadanlıqları" kafedrasının professoru, çoxsaylı metodiki təlimatların müəllifi, 50-dən çox alimin namizədlik və doktorluq dissertasiyasına rəhbərlik etmişdir. Həmyerlimiz həmçinin Rusiya və bir sıra xarici ölkələrin elmi jurnallarında dərc olunmuş 550-dən çox elmi məqalənin, 150-dən çox ixtira və patentin müəllifidir. Elm sərhədlər tanımadığı kimi, alim də özünün nailiyyət və çıxışları ilə dəfələrlə Böyük Britaniyada (Aberdin, Şotlandiya), Hollandiyada (Haaqa, Rotterdam, Amsterdam) və Rusiyada (Moskva, Krasnodar, Kislovodsk) keçirilən beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış edib.

Beynəlxalq Yanacaq və Energetika Assosiasiyasının qərarına əsasən 2006, 2008, 2009, 2011, 20012, 2013 və 2016-cı illərdə Ramiz Qasımov "Enerji və cəmiyyətin inkişafı üzrə problemlərin həllindəki böyük xidmətlərinə görə", digər həmyerlimiz - Nikolay Baybakovun adını daşıyan mükafatın laureatı olub. Bundan əlavə akademik "Rusiya Federasiyası qaz sənayesinin 100 ən yaxşı rəhbər işçisi" Ümumrusiya müsabiqəsinin qalibi olub, "Rusiya Federasiyasının iqtisadiyyatının inkişafındakı xidmətlərinə görə" ordeni ilə təltif olunub. "Əməkdar elm və təhsil xadimi" fəxri adına layiq görünüb, onun adı "Rusiya Federasiyasının görkəmli alimləri" ensiklopediyasına salınıb. Çoxlu sayda səmərələşdirici təklif və ixtiraların sahibi olan alim 2008-ci ildə ixtiraçılığın inkişafındakı xidmətlərinə görə Alfred Nobel adına medal alıb, Avropa Təbiibiliklər Akademiyasının akademiki seçilib.



### Həmvətən alimlə görüş

Bu yaxınlarda Stavropol şəhərində akademik Ramiz Qasımovla iş otağında görüşdük. Səmimi söhbətimiz çoxdankı ayrılıqdan sonra qovuşan dostların görüşünə bənzəyirdi. Keçdiyi yollarda olan illəri xatırladı, şirin və mehriban danışığı qəlbimin duyğuları ilə cilalandı. Çox mövzulara əl atdıq, yorulmadıq. rəngarəng olan söhbətlər nəhayət, axarına düşdü.

***- Ramiz müəllim, nədən, o zaman, orta məktəbi əla qiymətlərlə qurtarmış olduğunuz halda, indiki Neft Akademiyasını seçdiniz?***

- Sualınıza sualla cavab verməkistərdim. Deyin görüm, Azərbaycanda neftçi peşəsi qədər hörmətli peşə varmı?

***- İnstitutu bitirdikdən sonra düz on il Xəzərin o tayına gənc ikən göndərildiniz və işlədiniz. Türkmənistan həyatını necə xatırlayırsınız?***

- Çox gözəl! O illər mənim gəncliyimin ən parlaq səhifəsidir. Orada əldə etdiyim təcrübə, dözümlülük, mənə bir gənc kimi olan qayğılar unudulan deyil. Demək olar ki, bütün həyat sınaqlarını yaşadım. Yaşadım və öyrəndim. İlk böyük nailiyyətlərimi də məhz orada qazandım.

***- 26 ildir Stavropolda yaşayır və fəaliyyətinizi burada davam etdirirsiniz. Qəriblikdə darıxdığınız anlar çox olurmu?***

- Mən ki, Qafqazda, Qafqazın qapısındayam. İnsan bir yerə öyrənəndə ora da onun üçün doğmalaşır. İş vaxtım səmərəli keçir. İstirahət günləri, bəzən darıxanda gecələr xəyalən Vətənin seyrinə çıxıram. Doğrusu, bu da mənə sakitlik gətirir. Eləcə də yeganə oğlum Eldar üç ali məktəbi bitirməsinə, iqtisadiyyat üzrə fəlsəfə doktoru olmasına baxmayaraq burada yox, Bakıda yaşamağı üstün tutub.

***- Bu gün Siz, böyük bir elmi müəssisənin rəhbərisiniz. İşinizdə problem və çətinliklər, təzadlar varmı?***

- İş varsa, demək onun çətinliyi də olmalıdır. İqtisadiyyatda qaz və neft sahəsi məsuliyyət, dəqiqlik sevən bir sahədir. Burada elmlə təcrübə həmahəngdir. Qazandığımız nailiyyətlər asan əldə edilmir. Kollektivimdə bir nəfərin yanlışlığı böyük nöqsanlara yol aça bilər. Odur ki, daim nəzarət, diqqət və qayğı, işçilərlə təmasda olmaq uğurumuzun çırağıdır .

***- Sizin bir həmvətən, bir elm adamı olaraq akademiyamıza, onun kollektivinə, rəhbərliyinə sözünüz, təklifiniz varmı?***

- Əlbəttə, mən də bir azərbaycanlı olaraq istərdim ki, Azərbaycan elmi və təhsili dünya səviyyəsinə yüksəlsin. Bu istiqamətdə müəyyən işlər görülsə də, məlum səbəblərdən, hələ ki, buna nail ola bilməmişik. Bilirəm ki, akademiyanın indiki rəhbərliyi əlindən gələni edir ki, qaranlıqlara aydınlıqlar gətirsin, əks halda işığa gec çatacağıq. Təəssüf ki, nə qədər alimimiz olsa da, beynəlxalq əlaqələrə kölgə salan amillər mövcuddur. Bəli, son illər AMEA-da bir çox yeniliklərə imza atılmışdır, amma nədən xaricdə yaşayan alimlərimiz seçkilərdə iştirak etmir? Xaricdə nüfuz qazanmış kifayət qədər elm adamlarımız yaşayır, fəaliyyət göstərir. Nədən onların elmi potensialından, gücündən lazımınca istifadə edilməsin? Təklif edərdim ki, növbəti seçkilər ərəfəsində dünyada yaşayan azərbaycanlı alimlərin heç olmasa bir qismi seçkilərdə iştirak etsin, yer alsın. Məhz belə olduğu halda Azərbaycan Milli Elmlər Akademiyası böyük dönüşə və irəliləyişə nail olacaq.

***- Sonda arzularınız...***

- Qarabağ azad olsun! Vətənə salam olsun!

***Sərvan Kərimov***
***Stavropol***

## Xəbərlər

### İnstitutun qonaqları

"Müasir şərqşünaslığın aktual problemləri" (Ziya Bünyadov qiraətləri) mövzusunda keçirilən beynəlxalq elmi konfransın iştirakçılarından tanınmış alimlər - Rusiya Elmlər Akademiyasının Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru, akademik Aleksandr Kudelin və Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun professoru Bəxtiyar Babacanov Şərqşünaslıq İnstitutunda oldular.

Qonaqlar institutun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüb, İnstitutda aparılan tədqiqatlar, nəşr olunan kitablar barədə ümumi məlumat alıblar. Onlara bu və digər məlumatları əks etdirən bukletlər, institutda çap olunan kitablar hədiyyə edilib.

Daha sonra Aleksandr Kudelin və Bəxtiyar Babacanov institutunun əməkdaşları ilə görüşüblər. Qonaqları təqdim edən akademik Gövhər Baxşəliyeva Rusiya Elmlər Akademiyasının Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutu ilə iki gün əvvəl bağlanmış əməkdaşlıq haqqında müqavilənı xatırlatdıb və bu istiqamətdə görüləsi işlərdən söz açıb.

Akademik Kudelin rəhbərlik etdiyi elmi müəssisədə görülən işlərdən, o cümlədən özünün elmi tədqiqatlarından danışıb, institutlar arasında əlaqələrin tarixindən söz açıb, akademik Ziya Bünyadov haqqında xatirələrini dilə gətirib.

Öz növbəsində professor Bəxtiyar Babacanov çıxışında ölkəsində şərqşünaslıq sahəsində aparılan tədqiqatlardan danışıb, qarşılıqlı əməkdaşlığın əhəmiyyətini qeyd edib və bu sahədə Ziya Bünyadov qiraətlərinin mühüm rol oynadığını vurğulayıb.

Daha sonra qonaqlar akademik Ziya Bünyadov kabineti ziyarət ediblər, professor Aida İmanquliyevanın həyat və yaradıcılıq yolunu əks etdirən stendlə, son illərdə institutda nəşr edilmiş monoqrafiyalara tanış olublar.

***Vüqar Məmmədov***
***filologiya üzrə fəlsəfə doktoru, Şərqşünaslıq İnstitutunun ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşı***

### Dilimiz - milli varlığımız

AMEA prezidenti, akademik Akif Əlizadənin sərəncamına əsasən, ana dilimizə sevgi və hörmət hissini artırmaq, yazıda və şifahi nitqdə ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsini təşviq etmək məqsədilə "Ana dilimiz - milli varlığımızdır" müsabiqəsi elan olunub, onun təşkili üçün akademik Teymur Kərimlinin sədrliyi ilə komissiya yaradılıb.

Mərkəzi Elmi Kitabxanada 115 magistr, doktorant və dissertantın iştirak etdiyi müsabiqənin ilkin mərhələsi keçirilib, müxtəlif mövzularında inşalar yazılıb.

Tədbirdə komissiyanın sədr müavini, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, komissiyanın üzvü, akademik Nizami Cəfərov və digərləri iştirak ediblər.

## Yeni nəşrlər

### Azərbaycan bayrağı

Dövlət Bayrağı Muzeyinin direktoru, tarix üzrə fəlsəfə doktoru Könül İmamverdiyevanın "Azərbaycan bayrağı" adlı kitabının təqdimatı olub.

Respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi tədbirdə müəllif Könül İmamverdiyeva kitabın məziyyəti haqqında məlumat verib. Bildirib ki, yeni nəşr bayrağımızın təkamülü, inkişaf yolları və formalaşması tarixinə həsr edilib. Kitabın elmi məsləhətçisi Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, rəyçisi Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlıdır.

Könül İmamverdiyeva qeyd edib ki, nəşrin hazırlanmasında məqsəd bayrağımızın müstəqil dövlətçilik tarixində, habelə gənclərin vətənpərvərlik tərbiyəsində müstəsnalığını sistemli şəkildə oxuculara çatdırmaqdır. O, kitabın ərsəyə gəlməsində əməyi olanlara təşəkkürünü bildirib.

Sonra çıxış edən akademik Yaqub Mahmudov kitab haqqında fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan ərazisində yaranmış orta əsr dövlətlərinin bir neçə bayrağının ilkin mənbələr əsasında tədqiqi və kitabda yer alması nəşrin elmi əhəmiyyətini artırıb. Milli rəmzlərimizin bərpası və qəbulunda ulu öndər Heydər Əliyevin çoxsaylı xidmətlərinin olduğunu söyləyən alim qeyd edib ki, bu gün Prezident İlham Əliyev dövlət bayrağımızın təbliği istiqamətində müstəsna işlərin həyata keçməsi üçün xüsusi göstərişlər verir. Dövlət bayrağı ilə bağlı qanunvericilik bazasının formalaşması, bu yöndə həyata keçirilən müvafiq işlər ölkə rəhbərliyinin bu sahəyə olan diqqət və qayğısının nəticəsidir.

Tədbirdə Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktoru Məhəbbət Mehdiyeva, AMEA-nın Tarix İnstitutunun direktor müavini, tarix üzrə elmlər doktoru Tofiq Nəcəfli və başqaları kitabın elmi əhəmiyyətindən danışıblar.

### Gənclərə ünvanlanmış əsər

Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin "İrşadüş-şəbab" əsəri "Ekoprint" nəşriyyatında çapdan çıxıb. Kitab Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının müvafiq qərarı ilə nəşrə hazırlanıb.

Əsəri çapa hazırlayan fəlsəfə elmləri doktoru Zəkiyyə Əbilova "Ön söz"də "İrşadüş-şəbab"ı Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin anadan olmasının 150 illiyinə həsr etdiyini deyib.

"İrşadüş-şəbab" cəmiyyətin fəal qüvvəsi olan gənclərə ünvanlanmış əsərdir. Milli mənəvi dəyərlərin yaşamasına böyük üstünlük verən müəllif gəncləri dünyəvi elmlərlə yanaşı, dini elmlərdən də xəbərdar olmağa çağırır. Kitabda bir çox şəriət məsələləri şərh edilib, onların yerinə yetirilmə qaydaları izah olunub.

Nəşrin redaktoru akademik Vasim Məmmədəliyevdir.

# Tarixi yaddaş və müasir yüksəliş

AMEA Naxçıvan Bölməsində Azərbaycan Respublikasının Əməkdar müəllimi, Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyevin "Naxçıvan: tarixi yaddaş və müasir yüksəliş" kitabının təqdimatı keçirilib.

Naxçıvan Dövlət və "Naxçıvan" universitetləri ilə birgə təşkil olunan tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Naxçıvanın tarixi inkişafı və müasir yüksəlişinin təbliği baxımından fundamental nəşrin əhəmiyyətini qeyd edən alim bildirib ki, əsərin birinci bölməsində alimin müxtəlif illərdə yazdığı, respublikamızda və onun hüdudlarından kənarda nəşr etdirdiyi çoxsaylı məqalələrindən seçmələr toplanılıb. Məqalələrin böyük əksəriyyəti ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyəti, müstəqillik dövründə onun siyasi kursu, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində qazanılan uğurların əhatəli şəkildə araşdırmasına həsr olunub. Nəşrin ikinci bölməsində isə müəllifin "Naxçıvan tarixi" üçcildliyinin 2-ci cildi üçün "Naxçıvan Rusiya tərəfindən işğalı" və "Naxçıvan XIX əsrdə" adlı irihəcmli bölmələrə yazdığı fəsillər yer alıb.

Qeyd olunub ki, kitabda qədim türk-oğuz yurdu olan Naxçıvanın dünya eposunun nadir incilərindən olan "Kitabi Dədə Qorqud" dünyası ilə bağlılığı məsələlərinə nəzər salınır, bu bölgənin ulu keçmişi bir daha diqqət mərkəzinə çəkilir. Əsrdə Rusiya işğalından sonra bölgəyə köçürülmüş ermənilərin əməlləri, müxtəlif vaxtlarda xalqımıza qarşı törətdikləri qanlı qırğınlar fakt və sənədlərin dili ilə verilib.

Daha sonra tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Naxçıvanın tarixi inkişafına və müasir yüksəlişinə həsr edilmiş qiymətli əsər" mövzusunda məruzəsi dinlənilib.

Mərasimdə Naxçıvan Dövlət Universitetinin professoru, əməkdar elm xadimi Hüseyn Həşimli, "Naxçıvan" Universitetinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev və Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev çıxış edərək yeni nəşri milli tariximizin araşdırılması üçün dəyərli əsər kimi qiymətləndiriblər.

Sonda çıxış edən kitabın müəllifi tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Xoşbəxtliyə aparan elm

## Türk-İslam ədəbiyyatının ilk bədii əsəri



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamına əsasən, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası ilə birgə elmi konfrans keçirib.

"Qutadqu bilik" türk-İslam ədəbiyyatının ilk bədii əsəri" adlı tədbirdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev çıxış edərək Türk dünyasının şah əsərlərindən olan "Qutadqu bilik" haqqında ətraflı məlumat verib. Bildirib ki, XI əsr türk mədəniyyətinin böyük mütəfəkkirlərindən olan Yusif Balasaqunlu bu əsəri yazmaqla insan həyatının mənasını təhlil edən və onun cəmiyyətdəki vəzifəsini təyin edən həyat fəlsəfəsi sistemini yaradıb. Dörd təməl - qanun, qut, ağıl və qənaət üzərində yazılan "Qutadqu bilik" Gündoğdu, Aydoldu, Öyüdülmüş və Odqurmuş adlandırılan insanların söhbəti əsasında qurulub. Əsərin ilk 10 fəsli Allah və Peyğəmbər, dörd xəlifə, Buğra xanın tərifi, ulduzlar, biliklə ağlın xüsusiyyətləri, yaxşılığın faydaları, dilin məziyyətləri və digər dərin fəlsəfi məna daşıyan məsələlərə ayrılıb. Dilçi alim qeyd edib ki, "Qutadqu bilik"in dili türk dillərinin cənub-qərb qrupuna, yəni Oğuz qrupuna yaxındır. 6600 beytdən ibarət məsnəvi şəklində yazılmış poemada yeri gəldikcə şair rübai formasından da istifadə edib. Əruz və zindəmütəqarib bəhri kimi müəyyənləşdirilir. Müəllif əsərdə folklor motivlərindən, xalq həyatı və məişəti ilə bağlı bədii obraz və bənzətmələrdən geniş istifadə edilib. Bildirib ki, bugünkü türkcəmizdə "qut" səadət, xoşbəxtlik demək olduğundan Yusif Balasaqunlunun ana dilində yazdığı "Qutadqu bilik" indi "Xoşbəxtliyə aparan elm" kimi tərcümə olunur.

Tədbirdə AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Qutadqu bilik" poeması və onun türk dil və ədəbiyyatı tarixində yeri", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru,dosent Ramiz Qasımovun "Qutadqu bilik" və ədəbi ənənələr" və Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın "Qutadqu bilik" həyat fəlsəfəsi sistemidir" mövzusunda məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Tədqiqat işləri davam edəcək

AMEA Naxçıvan Bölməsində Xaraba Gilan arxeoloji ekspedisiyasının 2017-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində apardığı arxeoloji tədqiqatların nəticələrinə həsr olunan tədbir keçirilib.

Tədbirdə çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev on ildən artıqdır muxtar respublika ərazisində təşkil edilən arxeoloji ekspedisiyaların səmərəli fəaliyyətindən danışıb, tədqiqatlar zamanı bu diyarın qədim tarixi ilə bağlı mühüm faktların aşkar edildiyini bildirib. Akademik Ordubad ərazisində fəaliyyət göstərən Xaraba Gilan arxeoloji ekspedisiyasının tədqiqatlarını yekunlaşdırdığını diqqətə çatdırıb.

Sonra Xaraba Gilan arxeoloji ekspedisiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli cari ildə ərazidə apardıqları qazıntı işlərinə dair hesabatını təqdim edib. Naxçıvan bölgəsinin arxeoloji abidələrinin zənginliyindən danışan alim Xaraba Gilan və onun ətrafında olan abidələrin Azərbaycan arxeologiyası üçün əhəmiyyətini qeyd edib. O, gələcəkdə bu abidədə tədqiqat işlərinin davam etdiriləcəyini deyib.

Bəhlul İbrahimli qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri barədə də ətraflı məlumat verərək, ərazidən tapılan 229 ədəd nümunənin yaxın günlərdə bölmənin Arxeologiya və Etnoqrafiya muzeyinə təqdim ediləcəyini bildirib.

Sonda arxeoloq iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Tibb Universiteti Eduroam şəbəkəsinə qoşuldu

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da ölkəmizdə elm və təhsilin informasiya təminatının gücləndirilməsi, infrastrukturunun müasirləşdirilməsi, bu sahələrdə informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi kimi mühüm vəzifələr müəyyən edilmişdir.

Bu sahədə həyata keçirilən islahatlara dəstək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının elmi müəssisələri ilə yanaşı, respublikanın ali təhsil müəssisələrinin də elm və təhsil sahələrinin inteqrasiyasında böyük imkanlara malik olan, ölkədə elektron elmin texnoloji platformasını təşkil edən AzScienceNet şəbəkəsi və Data Mərkəzin xidmətlərindən istifadəsi üçün genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir.

Bu yaxınlarda ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Azərbaycan Tibb Universitetinin şəbəkə infrastrukturunun AzScienceNet elm-kompüter şəbəkəsi vasitəsilə beynəlxalq Eduroam şəbəkəsinə qoşulması təmin olunmuşdur. Bunun nəticəsində universitetin əməkdaşlarına Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyasının Eduroam xidmətindən istifadə imkanı yaradılmışdır. Hazırda Tibb Universitetinin professor-müəllim heyəti və tələbələr Avropanın müxtəlif universitetlərinə və elm mərkəzlərinə ezamiyyətləri zamanı bu xidmətdən istifadə edirlər.

Qeyd edək ki, Eduroam alim, tədqiqatçı, müəllim və tələbələrin İnternetə təhlükəsiz və sərbəst çıxışını təmin edən beynəlxalq rouminq xidmətidir. Bu xidmətə qoşulan istifadəçilər ölkə daxilində və xaricdə minlərlə elm və təhsil qurumunun ərazisində olarkən İnternetə simsiz şəbəkə üzərindən asan, ödənişsiz və təhlükəsiz çıxış imkanı əldə edir.

# Yarım əsrlik məhsuldar elmi yaradıcılıq

***Yeraltı hidroqazdinamika və neft-qaz yataqları sahələrində böyük xidmətləri olan görkəmli alim, AMEA-nın həqiqi üzvü, texnika elmləri doktoru, professor Qurban Nizaməddin oğlu Cəlilovun bu gün 90 yaşı tamam olur.***



1945-ci ildə orta məktəbi gümüş medalla bitirərək o, Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş və 1950-ci ildən Akademiyanın Fizika və Riyaziyyat institutunda aspiranturaya qəbul olunaraq Moskvaya ezam edilmişdir. Burada yeraltı hidrodinamika sahəsində tanınmış alim, professor V.Şelkaçevin rəhbərliyi altında "Neft konturunun hərəkəti və quyunun sulaşması ilə əlaqədar bəzi məsələlərin hidrodinamik tədqiqi" mövzusunda dissertasiya işini yazıb 1954-cü ildə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almışdır.

Sonrakı illərdə Qurban Cəlilov Elmlər Akademiyasının Neft Ekspedisiyasında kiçik, daha sonra böyük elmi işçi vəzifələrində elmi-tədqiqat işləri aparmış, 1958 - 1960-cı illərdə isə Elmi-Tədqiqat Neftçıxarma institutunda böyük elmi işçi vəzifəsində çalışmışdır.

Qurban Cəlilov 1960-cı ildən həyatının sonunadək Neft və Qaz Yataqlarının İşlənməsi İnstitutunda çalışmış, burada baş elmi işçi, Yeraltı Hidrodinamika şöbəsinin rəhbəri işləmişdir. Dərin və geniş tədqiqat işləri apararaq o, "Neft konturunun hərəkəti, quyuların sulaşması və süzülmənin fəza məsələləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1966-cı ildə professor elmi adını, 1972-ci ildə isə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. 1974 -1988-ci illərdə institutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışan alim 1980-ci ildə Azərbaycan EA-nın Yer haqqında Elmlər bölməsinin akademik katibinin müavini seçilmiş, 1989-cu ildə akademiyanın həqiqi üzvü seçilmişdir.

Akademik Qurban Cəlilovun yarım əsrlik məhsuldar və zəngin elmi yaradıcılıq fəaliyyəti dövründə apardığı fundamental elmi-tədqiqat işləri və aldığı mühüm nəticələr yeraltı hidroqazdinamika, neft və qaz yataqlarının işlənməsi sahələrində böyük əhəmiyyət kəsb etməklə yüksək elmi səviyyəsi ilə seçilir və neftçıxarmanın nəzəriyyəsi və təcrübəsi üçün sanballı töhfədir.

Alimin həmkarları və tələbələri ilə birlikdə apardığı çoxsaylı elmi-tədqiqat işləri quyuların qarşılıqlı təsiri və sulaşması, su-neft konturunun hərəkəti, qazın su və qazlı maye ilə sıxışdırılması, çoxlaylı yataqlarda qazın və mayenin natamam quyular sisteminə hərəkəti, çatlı-məsaməli və mürəkkəb reoloji xassəli neft və qaz yataqlarının işlənməsi xüsusiyyətlərinin tədqiqi, lay parametrlərinin, tektonik pozuntuların və laylararası axınların yerinin təyin olunması, laylara istiliklə təsir etmənin və digər yeni təsir üsullarının tətbiqinin qiymətləndirilməsi, tükənmədə olan qazkondensat və neft yataqlarının işlənmə layihələrinin hazırlanması və işlənməsinin təhlili, çoxlaylı qaz yataqlarının işlənməsinin qazhidrodinamik hesabat üsullarının hazırlanması və s. aktual problemlərin həllinə həsr olunmuşdur.

Akademik Qurban Cəlilovun dərin və məhsuldar elmi araşdırmaları və aldığı nəticələr neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi və tədqiqində geniş istifadə olunur. Qurban Cəlilov, həmçinin, Azərbaycandakı Neft Daşları, Qaradağ, Cənub, Darvin hövzəsi, Palçıq pilpiləsi, Hovsan, Duvannı yataqlarının işlənmə layihələrinin əsas icraçılarından biri olmuşdur.

Alim keçmiş SSRİ EA-nın "Neft və qaz yataqlarının işlənməsi" problemi üzrə Elmi Şuranın, Azərbaycan EA Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda elmi dərəcələr verən İxtisaslaşdırılmış Şuranın, Azərbaycan Dövlət Neft Akademiyasında "Deformasiyalanan bərk cisim mexanikası", "Maye, qaz və plazma mexanikası" ixtisasları üzrə elmi dərəcələr verən İxtisaslaşdırılmış Şuranın, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neft, qaz və qazkondensat yataqlarının işlənməsi" üzrə mərkəzi komissiyanın və Beynəlxalq Neftçi-Mühəndislər Cəmiyyətinin üzvü, Azərbaycan Sovet Ensiklopediyasının texnika elmləri redaksiyası üzrə elmi məsləhətçisi olmuşdur.

Akademik Qurban Cəlilov 230-dan artıq elmi-tədqiqat işinin, o cümlədən, 4 monoqrafiya və 2 müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun elmi kadrların hazırlanmasında böyük rolu olmuşdur, rəhbərliyi altında iki doktorluq, 24 namizədlik dissertasiyası müdafiə edilmişdir. Dərin bilik və zəngin yaradıcılıq təcrübəsini gənc nəslə böyük həvəslə öyrədən qayğıkeş alim Bakı Dövlət Universitetində, Texniki Universitetdə və "Təfəkkür" Universitetində maye və qaz mexanikasının müxtəlif bölmələrindən mühazirələr oxumuşdur.

Qurban Cəlilov çoxillik və məhsuldar elmi və ictimai fəaliyyətinə görə "Xalqlar Dostluğu" ordeni, "Şanlı əməyə görə Leninin anadan olmasının 100 illiyi münasibəti ilə" yubiley medalı, Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan EA Rəyasət Heyətinin fəxri fərmanları, "Neft sənayesi əlaçısı" nişanı ilə təltif edilmiş, akademik Qubkin adına mükafata layiq görülmüşdür.

Yüksək peşəkarlıq, geniş dünyagörüşü, tədqiqatların çoxsahəliliyi ilə fərqlənən Qurban müəllim, həmçinin təlbkar, nikbin, qayğıkeş və sadə bir insan idi, ona müraciət edənlərə kömək əlini uzadar və yol göstərərdi.

Şərəfli ömür yolu keçmiş səmimi və xeyirxah insan Qurban Nizaməddin oğlu Cəlilovun əziz xatirəsi onu tanıyanların qəlbində yaşayır.

***AMEA-nın müxbir üzvü***
***Q.İ.Calalov***
***AMEA-nın müxbir üzvü***
***A.M.Quliyev***
***Texnika elmləri namizədi***
***Z.B.Quliyeva***

# Müsabiqə başa çatdı

Oktyabr ayının 23-də Azərsu ASC-nin Konfrans zalında AMEA Azad Həmkarlar İttifaqının və "Azərsu" Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilmiş "İslam Həmrəyliyi - Azərbaycan nümunəsi" adlı yazı və poster müsabiqəsinə yekun vuruldu.

Tədbirin açılışını Azərsu Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Akif Məmmədov edərək, İslam Həmrəyliyinin vacibliyi ilə bağlı məlumat verdikdən sonra sözü tədbirin keçirilməsinə təşkilati dəstək göstərən Azərbaycan Milli Elmlər Akademiyasının Azad Həmkarlar İttifaqının sədri, professor Habil Qurbanova verdi. Habil Qurbanov ölkə səviyyəsində bu istiqamətdə aparılan işlər və görülən tədbirlərlə bağlı çıxış etdi.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri, Aqil Şirinov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Nicat Məmmədli çıxış etdilər. Daha sonra müsabiqənin Təşkilat Komitəsinin sədri Xəyalə Məmmədova müsabiqənin təşkili ilə bağlı geniş məlumat verib. Qeyd edib ki, müsabiqəyə 72 məqalə və 7 poster daxil olmuşdur. Daxil olunan digər məqalələr "Elm və İnnovativ Texnologiyalar" beynəlxalq elmi jurnalının "İslam Həmrəyliyi-Azərbaycan nümunəsi" adlı xüsusi nömrəsində çap olunacaq.

Tədbirin sonunda aşağıdakı qaliblər mükafatlandırıldı: Əminə Əliyeva - Şərqşünaslıq İnstitutu, Sakit Hüseynov və Zeynəddin Şabanov - Fəlsəfə İnstitutu, Elşad İsayev - Azərsu ASC, Müştəri xidmətləri departamenti, Pərvanə Xıdırova -



"Azərsu" ASC, "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu, Yusif Məmmədov - ARB TV-nin əməkdaşı.

Mükafatlandırmadan sonra son bir ildə Azərbaycanın multikulturalizm modelinin tədqiqi, elmi təhlillərin aparılması, müxtəlif ölkələrə aid mədəniyyətlərin araşdırılması və təşviqi, eyni zamanda bu sahədə araşdırma aparan tanınmış dünya alimləri ilə aparılan elmi-müsahibələrin layihəsinin təqdimatı oldu. ABŞ Muğam Cəmiyyətinin sədri, Azərbaycan muğamının tədqiqatçısı Cefri Verbok, Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Melix Yevdayev Fəxri diplomlarla təltif olundular.

AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri Famin Salmanov qalibləri təbrik etdi.

## Yeni nəşrlər

### Şəxsiyyət, dövlət, möcüzə...

Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı, hüquq üzrə elmlər doktoru, professor Əli Rzayevin "Şəxsiyyət Dövlət Möcüzə..." adlı kitabının təqdimatı keçirilib.

Nazirlik və komitələrinin nümayəndələri, millət vəkilləri, alimlər və KİV təmsilçilərinin iştirak etdikləri toplantıda institutun elmi işlər üzrə direktor müavini Nazim Cəfərli çıxış edərək Əli Rzayevin oxuculara təqdim edilən kitabından danışdı, nəşrin ictimaiyyət üçün aktual mövzuya həsr olunduğunu və burada bir-biri ilə üzvi bağlı olan şəxsiyyət, dövlət, möcüzə probleminin hüquq prizmasından araşdırıldığından söylədi. Qeyd etdi ki, kitabda şəxsiyyətin məzmunu, insanın canlı aləmdə yeri, dövlətin təşəkkülü və mahiyyəti, Şumer və Quran möcüzələri haqqında dünya alimlərinin fikirləri, Şərq mədəniyyətinin Qərbə transformasiya yolları müxtəlif aspektlərlə təhlil olunur. Nazim Cəfərli nəşrdə, həmçinin dövlət və cəmiyyət münasibətlərinin, dövlətin tarixi tiplərinin, vətəndaş cəmiyyətinin yaranmasının və mahiyyətinin də araşdırıldığını diqqətə çatdırdı.

Tədbirdə Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru Rəfiqə Əzimova, millət vəkilləri Fazil Mustafa, Elman Nəsirli, Zahid Oruc, Qüdrət Həsənquluyev və digərləri çıxış edərək yeni nəşrdə dövlətçilik tarixi ilə bağlı önəmli faktların əksini tapdığını və Əli Rzayevin öz şərhləri ilə bu faktları zənginləşdirdiyini söylədilər.

Sonda kitabın müəllifi tədbirin təşkilatçılarına və iştirakçılarına, o cümlədən nəşrin işıq üzü görməsində əməyi olanlara minnətdarlığını bildirdi.

### Arxeologiyadan bəhs edən kitab

Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru Nəcəf Müseyiblinin "Azərbaycan arxeologiyası: uğurlar, problemlər, perspektivlər" adlı kitabı nəşr olunub. Kitabda müəllifin son illər Azərbaycan arxeologiya elminin müxtəlif problemlərinə dair bir sıra qəzetlərdə və bəzi jurnallarda nəşr olunmuş elmi-publisistik məqalələri toplanıb.

Nəşrdəki məqalələrin bir qrupu tarixi-arxeoloji abidələr barədə ölkə prezidentinin sərəncamlarının yerinə yetirilməsi ilə bağlı vəzifələrin şərhinə həsr olunub. Məqalələrdə, eyni zamanda, arxeoloji abidələrin tədqiqat problemləri, mühafizəsi və xilas edilməsi yolları geniş şərh edilib. Azərbaycan arxeologiya elmində mühüm hadisələr, arxeologiyada elmi-təşkilati işlər, qədim tariximizin öyrənilməsində arxeologiyanın əhəmiyyəti, bu elmdə müstəsna xidmətləri olan alimlər barədə yazılar da yer alıb.

Arxeologiya və tarix üzrə mütəxəssislərlə yanaşı, geniş oxucu kütləsi üçün də nəzərdə tutulan nəşrdə, həmçinin Azərbaycanın erkən dövlətçilik tarixi və xalqımızın etnogenez tarixinin arxeoloji və paleoantropoloji tədqiqatlarla öyrənilməsi ətraflı təhlil edilib.

# İstedadlı alim və bacarıqlı elm təşkilatçısı

***Mərkəzi Elmi Kitabxanada bu qurumun və AMEA-nın akademik A.Qarayev adına Fiziologiya İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli fizioloq-alim və elm təşkilatçısı, Əməkdar Elm Xadimi, akademik Hüseyn Həsənovun xatirəsinə həsr edilən "Akademik Hüseyn Həsənov" kitabının təqdimatı keçirilib. Tədbirdə, həmçinin "A.Qarayev adına Fiziologiya İnstitutunun və Azərbaycan Fizioloqlar Cəmiyyətinin elmi əsərlərinin külliyyatı" təqdim edilib.***



Təqdimatda kitabxananın direktoru Leyla İmanova elm aləmində xidmətləri ilə seçilən, Azərbaycan zəkasını dünya səviyyəsinə çıxaran alimlərin daim hörmətlə anıldıqlarını və adı fəxrlə çəkilən akademik Hüseyn Həsənovun da ehtiramla yad olunduğunu, işıqlı bir insan kimi hafizələrdə yaşadığını bildirib. Belə insanların elmi nəticələrini Azərbaycanın zəngin irsi adlandıran Leyla İmanova kitabxananın həyata keçirdiyi Milli Rəqəmsal Yaddaş layihəsi çərçivəsində alimin dəyərli əsərlərinin elektronlaşdırılmasından və zəngin irsinin gələcəyə ötürülməsi üçün yaradılan vahid etibarlı bazadan söhbət açıb. Leyla İmanova akademik Hüseyn Həsənovun xatirəsinə həsr edilən "AMEA Fiziologiya İnstitutunun əsərlərinin külliyyatı" nəşrinin çap və elektron formatda kitabxanaya təqdim olunmasını bu qəbildən olan işlərin davamı adlandırıb.

Fiziologiya İnstitutunun direktoru, professor Ulduz Haşımova "Akademik Hüseyn Həsənov" kitabı və görkəmli alimin elmi fəaliyyəti barədə məlumat verib. "A.Qarayev adına Fiziologiya İnstitutunun və Azərbaycan Fizioloqlar Cəmiyyətinin elmi əsərlərinin külliyyatı"nın da görkəmli akademikin xatirəsinə həsr olunduğu diqqətə çatdırılıb. Bildirilib ki, akademik Hüseyn Həsənov fiziologiya sahəsində respublika üçün yüksək ixtisaslı kadrların hazırlanması işinə də böyük töhfələr verib. Kitabda Azərbaycanda fiziologiya elminin inkişafında xüsusi xidmətləri olan, elmin bu sahəsi üzrə ölkəmizi dünya konqreslərində layiqincə təmsil etmiş akademik Hüseyn Həsənovun həyat yolundan, elmi fəaliyyətindən ətraflı söz açılır.

Sonra AMEA-nın müxbir üzvü Rafiq Qasımov görkəmli alimin həyatı və zəngin elmi fəaliyyəti barədə məruzə ilə çıxış edib. Hüseyn Həsənovun yüksək insani keyfiyyətlərindən söz açan Rafiq Qasımov onu səmimi insan, gözəl ailə başçısı, istedadlı alim və bacarıqlı elm təşkilatçısı kimi xarakterizə edib. Vurğulanıb ki, mərkəzi sinir sisteminin fiziologiyasının öyrənilməsində, fiziologiyanın tədqiqi üçün laboratoriyaların açılmasında böyük əmək sərf etmiş alimin əsərləri bir sıra xarici ölkələrdə çap olunaraq dünya elmi ictimaiyyətinin diqqətinə çatdırılıb, Hüseyn Həsənovun səyi nəticəsində SSRİ fizioloqlarının qurultayı Azərbaycanda keçirilib. Rafiq Qasımov uşaqlıq və tələbəlik dostu, görkəmli akademik Hüseyn Həsənovla bağlı xatirələrini bölüşüb.

Akademik Məmməd Salmanov və digər çıxış edənlər tanınmış alim və ictimai xadim, akademik Hüseyn Həsənovun elmə, təhsilə verdiyi töhfələrdən, Azərbaycan fiziologiya elminin inkişafında əvəzsiz xidmətlərindən söz açıblar. Qeyd edilib ki, Hüseyn Həsənov Azərbaycan fiziologiya elminin inkişafında böyük xidmətləri olan, çətin və şərəfli ömür yolu keçmiş alim, bacarıqlı elm təşkilatçısı idi. Ölkəmizdə fiziologiya sahəsində nailiyyətlərin qazanılmasında əvəzsiz rol oynayan, qısa ömründə çox işlər görən görkəmli akademikin yetirmələri hazırda onun işini müvəffəqiyyətlə davam etdirirlər.

Tədbirdə "Akademik Hüseyn Həsənov" kitabı barədə videoçarx göstərilib. Qeyd olunub ki, akademikin həyat yoldaşı Arifə Həsənovanın istəyi ilə hazırlanan kitab alimin xatirəsinə həsr olunub. Jurnalist Şəlalə Məhyəddinqızının qələmə aldığı kitabda alimi yaxından tanıyan iş yoldaşlarının, yaxın dostları olmuş fizioloq həmkarlarının, aspirantlarının xatirələri toplanıb. Nəşrdə, həmçinin alimin beynəlxalq konfranslarda iştirakı, mükafatları, arxivində olan sənədlər və fotolar öz əksini tapıb. Kitabda yer almış fotolarda fiziologiyanın inkişafından soraq verən tarixi sənədlər oxuculara təqdim olunur.

# Elmi Şura mövzuları təsdiq edib

Akademik Rafael Hüseynovun sədrliyi ilə Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya Problemləri üzrə Elmi Şurasının 8-ci iclası keçirilib. İclasda 5-i elmlər doktorluğu hazırlığı, 33-ü fəlsəfə doktorluğu hazırlığı üzrə 38 nəfər sənəd təqdim etmiş iddiaçının mövzusu müzakirə olunub, dissertant və doktorantlara müvafiq tövsiyələr verilib.

Elmlər doktoru hazırlığı proqramı üzrə müraciət etmiş şəxslərdən Bakı Dövlət Universitetinin doktorantı Gülgün Əliyevanın, AMEA Naxçıvan Bölməsinin doktorantı Fatimə Vəliyevanın, Dilçilik İnstitutunun dissertantı Nağdəli Zamanovun mövzuları olduğu kimi, Əlyazmalar İnstitutunun dissertantı Qətibə Quliyevanın mövzusu isə qismən dəyişərək təsdiq edilib.

Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı kafedrasının doktorantı Tofiq Yusifovun mövzusu onun doktorantura üzrə ixtisasına uyğun gəlmədiyinə və ümumiyyətlə bu mövzunun elmlər doktorluğu pilləsi üçün yetərincə miqyaslı olmaması səbəbindən təsdiq edilməyib.

Tədbirdə fəlsəfə doktorluğu hazırlığı proqramı üzrə "İngilis və Azərbaycan dillərində "Vətən" konsepti", "Azərbaycan mətbuatı tarixində "İqbal" qəzetinin yeri və rolu", "XX əsr Türkiyə ədəbiyyatında Azərbaycan mövzusu", "Müasir Azərbaycan ədəbi dilində turizm terminologiyasının formalaşması və inkişafı", "Təhsil diskursunda ingilis dili vasitəsi ilə qloballaşma", "Əzizə Cəfərzadənin yaradıcılığında tarixilik və müasirlik", "Qlobal informasiya cəmiyyətinin formalaşması prosesinə Azərbaycanın inteqrasiyasında KİV-in iştirakı" və digər dissertasiya mövzuları ətrafında müzakirələr geniş elmi diskussiyaya çevrilib.

Beləliklə, iclasda müzakirəsi aparılan 38 mövzudan altısının adında dəyişiklik edilməklə 24-ü təsdiq edilib.

Müzakirələrdə filologiya elmləri doktorları Atamoğlan Həsənov, Aida Qasımova, Bədirxan Əhmədov, Cəlil Nağıyev, Əsgər Rəsulov, Fəxrəddin Veysəlli, İmamverdi Həmidov, Qəzənfər Kazımov, Qulu Məhərrəmli, Məmməd Qocayev, Nadir Məmmədli, Seyfəddin Rzasoy, Şəfəq Əlibəyli, Paşa Kərimov çıxış edərək fikir və təkliflərini bildiriblər.

## Elanlar

### Xətainin qılıncı və qələmi

Noyabrın 23-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində xalqımızın ictimai-siyasi və mədəni yüksəlişində müstəsna xidmətləri olan dövlət xadimi, şair Şah İsmayıl Xətainin anadan olmasının 530 illiyinə həsr olunan "Xətainin qılıncı və qələmi" mövzusunda respublika konfransı keçiriləcək.

Konfransda "Şah İsmayıl Xətainin ədəbi irsi və orta əsrlər Azərbaycan ədəbiyyatının problemləri", "Azərbaycan dövlətçilik tarixində Şah İsmayılın yeri və Səfəvilər dövləti", "Şah İsmayıl Xətai dövründə mədəni həyat və orta əsrlər Azərbaycanının kulturoloji problemləri", "Şah İsmayıl Xətai dövrü və sonrakı əsrlərdə təzkirəçilik, salnaməçilik və tərcümə sənətinin başlıca simaları, mühüm əsərləri və yaratdıqları ənənələr", "Şah İsmayıl Xətai dövründə Azərbaycan əlyazma sənəti və orta əsrlər miniatür, kalliqrafiya, kitab tərtibi sənətinin inkişaf mərhələləri" və digər mövzular müzakirə olunacaq.

Məruzələrin tezisləri noyabrın 5-dək qəbul olunur.

### Müsabiqələr

Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu aşağıda qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə elan edir:

"Seolitlər üzərində kataliz" laboratoriyası üzrə: aparıcı elmi işçi - 1 yer;

"Nadir metalların kompleks birləşmələri" laboratoriyası üzrə: böyük elmi işçi - 1 yer;

"Seolit katalizi" laboratoriyası üzrə: böyük elmi işçi - 1 yer.

Müsabiqədə kimya elmləri sahəsində fəlsəfə doktoru elmi dərəcəsinə malik olan şəxslər iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana təqdim edilməlidir: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 113, Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu.

***Telefon:*** 539-38-71.

* * *

Nəsimi adına Dilçilik İnstitutu vakant olan Terminologiya şöbəsinin aparıcı elmi işçi vəzifəsini tutmaq üçün müsabiqə elan edir. Müsabiqədə fəlsəfə və elmlər doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində elmi katibliyə təqdim edilməlidir.

***Ünvan:*** Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115.

***Telefon:*** (+994 12) 537 20 88.

### Yubiley sərgisi

Dövlət Müstəqilliyi günü ərəfəsində Mərkəzi Elmi Kitabxanasında Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" müvafiq Sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən sərgi açılıb.

Sərgidə AXC-nin yaranmasını, fəaliyyətini, AXC-nin qurucularının həyatını əks etdirən 50-dək mənbə nümayiş olunur. Burada AMEA Tarix İnstitutunun AXC-nin Böyük Britaniya arxivində olan sənədlərinə əsasən hazırladığı "Azərbaycan Demokratik Respublikası", "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası", "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri", "Azərbaycan Xalq Cümhuriyyəti və milli müstəqilliyin ideya-siyasi problemləri", "Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti", "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti", M.Ə.Rəsulzadənin müəllifi olduğu, məqalələrinin və məktublarının toplandığı "Məqalələr və məktublar toplusu" və digər kitablar sərgilənir.

**Redaksiya heyəti:**
***Akif Əlizadə, İbrahim Quliyev, İsa Həbibbəyli, Tofiq Nağıyev, Dilqəm Tağıyev, Rasim Əliquliyev, Əhliman Əmiraslanov, Qərib Məmmədov, İsmayıl Hacıyev, Fuad Əliyev, Fəxrəddin Qədirov, Teymur Kərimli, Nazim Məmmədov, Nərgiz Axundova***

**Redaktor:** ***Zülfüqar İslamoğlu***
**Redaktor müavini:** ***Sədayə Mürsəlova*** **Məsul katib:** ***Qaliya Əliyeva***

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan MEA Rəyasət Heyətinin binası,
"Elm" qəzetinin redaksiyası
**E-mail:** elm_qezeti@science.az

Qəzet "Elm" qəzetinin redaksiyasında yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

**Çapa imzalanmışdır:** 26.10.2017-cı il. **Sifariş:** 3079 **Tiraj:** 2000